seçkiliyi aradan qaldırıb, eyni vaxtda həm hecayla, həm sərbəst yazmağın mümkünlüyünü göstərməyə çalışırdıq. Bu baxımdan Nüsrət Kəsəmənli şeiri də iki qanadlıdır və onun istedadı üçün bu yolların heç birində maneə yoxdur. Nüsrət şeir tariximizdə yüz dəfə işlənmiş rədiflərlə qoşma, gəraylı yazmaqdan çəkinmədiyi kimi, ən gözlənilməz obrazlara, gözlənilməz poetik dillə danışmağı da bacarırdı. Məsələn, 1980 -ci ildə Yardımlıda, sərhəddə, Savalanla üzbəüz dayandığımız gün mənə həsr etdiyi bir şeirdə deyirdi:

*Külək aparır sözümü,*
*Göz yaşım inci düzümü.*
*O tayda bir qız gözünü*
*Sıxır, pərişan-pərişan.*

*Qoyur çəmənə izini,*
*Bulud alır dost üzünü.*
*O taydan qəmli gözünü*
*Yığır, pərişan-pərişan.*

Bu, ənənəyə bağlı və bəsit görünməkdən, köhnə qafiyələrlə danışmaqdan qorxmayan şairdir. Çünki önəmli olan burdakı ruhun yeniliyi, köhnə görünən söz düzümlərinin yeni duyğuları çağdaş havaya kökləyə bilməsi və cızdığı mənzərənin xalqın faciəsini ifadə edə bilmək gücüdür.

Sərbəst şeirlərində başqa bir Nüsrət görürük. O, "yetişmiş və yetişməmiş bombaları dərib, körpə saflığıyla oyanan cahana bir səbət Göyçay narı göndərmək istəyir", "Zamanın budaqlarında dahilərin cəsədi saat kəfkiri kimi yellənəndə, çıxıb əsrlərin üstünə qıpqırmızı bir həqiqət ağappaq yalanlara "mənəm Həqq" - deyib dillənəndə haqqın dilini yox, zülmün kəndirini kəsdirmək" istəyir, onun gözündə ağaclar köklərini torpaqda dəfn edib ucalır, buludlar dəsmal kimi şeh düşmüş günəşi qurulamaq istəyir. 20 Yanvarda "ölülər sıxılmış ovuclarından azadlığı buraxmaq istəmirlər", "qanlı köynəyinə bürünənlər şəhidlik zirvəsinə gedir" ... Bu misalların sayını artırmaq da olar. Çox yer alar deyə şeirlərdən bütöv parçaları bura köçürmədim. Lakin elə bu misralar da şair dostumun poetik düşüncəsinin rəngarəngliyini göstərməyə bəs edir.

Nüsrətin bənzərsiz publisistikası vardı. Televiziyada unudulmaz verilişlər aparırdı. Sənədli filmimizin inkişafında xidmətləri danılmazdır. "Bakı" qəzetində işlədiyi illərdə balaca xəbər köşələrini sözünün gücüylə necə genişləndirdiyini, xırda olayları obrazlı və şairanə dillə necə ətə-qana doldurduğunu yaxşı xatırlayıram.

Onun gözəl insan və böyük istedad sahibi olması, iri bədənində kövrək uşaq ürəyi gəzdirməsi barədə çox yazmaq olar...

Bəzi şeirləri gözümüzün qabağında, anidən doğulub. Zarafat kimi baxdığımız və ardı kəsilməyəcək sandığımız olayların hər biri şirin xatirəyə dönüb.

...Biz üçümüz də şahmatı sevirdik. Hətta sonralar mən Şahmat federasiyasının yaradılmasında yaxından iştirak etdim, federasiyanın ilk prezidenti seçildim və bunu oyun vaxtı onlara tez-tez xatırladırdım... Nüsrət bütün oyunları ehtirasla oynardı. Üçümüz də bələydik. Ancaq axıra kimi eyni səviyyədə oynamırdı, hövsələsi çatmırdı. Bir dəfə jurnalistin tələsinə düşmüş və hansımızın yaxşı oynadığımız barədə suala yəqin elə uduzmaların acığına "məni yuxudan oyatsanız, yenə onları udaram" - demişdi. Həmin gün onun ofisinin qabağından keçib Yazarlar Birliyinə gedərkən birdən bu müsahibə yadıma düşdü və yolumu dəyişib ofisə girdim. Pillələrlə bir oğlan düşürdü, məni görən kimi güldü və "o müsahibəni yazan mənəm" - dedi. Qolundan tutub geri qaytardım. Gəl otur, gör qardaşım yuxudan oyananda necə oynayır. Nüsrət də həvəslə daşları düzdü və bir neçə gedişdən sonra səhvə yol verdi. Köhnə xasiyyətincə əlimdən tutub fiquru götürməyimə imkan vermirdi. Belə hallarda, uşaq cığallığıyla "üzr istəyirəm" deyib vəziyyətdən çıxırdı. Güzəştə ehtiyacı olmayan, qürurlu, əyilməz dostumuzun, dodaqlarında təbəssüm, bu süni üzristəmələrindən ötrü oyunu uduzmaq da olardı. Bizə ləzzət verir, zarafat mövzusuna çevrilirdi. Ancaq həmin gün mən də inada düşmüşdüm, üzr istəmək metodları işə yaramırdı. Bizim mübahisələri maraqla izləyən jurnalistə "get, şahmatda kimin udduğunu doğru yaz" - dedim. Təbii ki, araya başqa mövzular düşdü, iki dəqiqədən sonra şahmat unuduldu....

Nüsrət dost yolunda oda atılardı. Bir dəfə iki maşınla onun Əhmədlidəki evinə gedirdik. O qabaqdaydı. Neftçilər metrosuna catmamış yandan qəflətən çıxan maşın məni vurdu. Nüsrət bunu güzgüdən görübmüş. Maşını saxladım, yüngülcə əzilmişdi. Sakitcə sürüb gedəcəkdim. Bəlkə məni vuran yanımdan keçib getsə, fikir də verməyəcəkdim. Ancaq bir də baxdım Nüsrət sürücünü yaxalayıb, zorla əlindən aldım. "Boş ver!" "Nə boş ver, - dedi, maşını vurmağı azmış, hələ bir aradan çıxmaq istəyir." Maşını düzəltdirməyi onun boynuna qoyana qədər əl çəkmədi...

Azərbaycanda və kənar yerlərdə başımıza çox macəralar gəlmişdi, bəzən dalaşmalı olmuşduq. Hətta Moskvadan, Komsomolun mərkəzi komitəsindən Bakıya məktub gəlmişdi ki, bir də bu iki nəfəri ümumittifaq tədbirlərinə göndərməyin, lakin bizimkilər bu məktuba əhəmiyyət vermədilər, nədən ötrü mübahisə etdiyimizi, savaşdığımızı bilirdilər.

Həm son dərəcə yaxın, həm də əlçatmaz xatirələrdir. Hər biri Nüsrətin xarakterinə bir tərəfdən işıq salır, onu daha yaxşı tanıdır.

Şuşaya, Vaqif poeziya günlərinə getmişdik. Gecədən xeyli keçmiş yarımqaranlıq küçəylə restorandan otelə doğru enirdik. Mərkəzi Komitənin ideoloji katibi, bu gün xaricdə ölkəmizin səfiri olan, son illərdə tariximiz haqqında yeni araşdırmalara və tapıntılara söykənən, qədim tariximizə yeni baxış sərgiləyən bir neçə qiymətli kitab nəşr etdirmiş və o vaxt da ədəbiyyatımızı ürəkdən sevən hörmətli Həsən Həsənov qolumdan tutub məni dəstədən arxaya saxladı və dedi: "Sənin "Gəncə qapısı" kitabını çox bəyənmişdim, rəyimi sənə də demişdim, mükafata layiq kitabdır, ancaq yəqin bilirsən, dostun Nüsrət Kəsəmənlinin kitabı da təqdim olunub Komsomol mükafatına. Rəqibsiniz. Nə deyirsən? Mükafatı hansınıza verməliyik?" Mən tərəddüd eləmədən dedim: "Nüsrətin kitabı da mükafata layiqdir. Birimiz alsaq, digərimiz kənarda qalsaq, haqsızlıq olar və heç birimizə nuş olmaz!" Ayaq saxladı və güldü: "Şükür, ilk dəfədir, yazıçılarımızdan birini dostunu müdafiə edən görürəm. Yoxsa kimi dindirirsən, deyir əvvəlcə mən. Yaxşı, sənin rəyini nəzərə alarıq!" - dedi və dəstəyə qoşulduq. O il ikimiz bir yerdə aldıq mükafatı; sovet- komsomol ideologiyasına qətiyyən aidiyyəti olmayan, milli ruhlu kitablarımıza görə...

1988-ci ilin mitinqləri, Meydan - həm də ziyalıların sınaq meydanıydı, sözlə işin nə qədər uyğunluğunun su üzünə çıxan çağlarıydı. O zaman Nüsrət çoxlarından fərqli olaraq, xalqın arasındaydı. Alovlu çıxışlar edirdi, sonra da 20 Yanvara, Şuşaya, Xocalı faciəsinə, itən torpaqlarımıza və şahidi olduğu xəyanətlərə yanğılı şeirlər yazdı...

...Bir gün Gündüz mənə zəng vurub gözlənilməz bir xəbər verdi: "Ata, bilirsənmi, Nüsrət əmi qəzaya düşüb..." Nüsrət usta sürücü olduğundan bu xəbər məni təəccübləndirdi: "Özü əzilməyib ki?" - deyə soruşdum. "Nə əzilmə, deyirlər ölüb". Səsi titrədi. Danışığımızı kəsdim. Hara zəng vurum? Bir də gördüm mexaniki şəkildə Nüsrətin öz nömrəsini yığmışam. Və cavabı da o özü verdi... İnsanların həyatında nadir hallarda ortaya çıxan bir durumdur. "Qardaş, şükür sağ-salamatsan!" "Hə, şəhərə başqa xəbər yayılsa da, salamatam - dedi. Bir möcüzəylə xilas olmuşam. Qatar maşınımı 20 metr sürüklədi, amma özümə bir şey olmadı." "Düş evin yanına, gəlirəm" - dedim. Görüşdük, hələ həyəcanı keçməmişdi. "Bulaq suyu olsa içərdim" - dedi. Getdik o vaxt Əzizbəyov körpüsünün o üzündə yeni açılmış "Qəbələ" restoranına. Səhəngdə sərin bulaq suyu gətirdilər. Yenidən üz-üzə oturmağımızın şərəfinə süfrə açdırdım. Qədəhi əlinə götürüb sakitcə "Mən indi ölmüş olmalıydım. Yaxın dostum kimi üstümdə əsas sözü sən deyəcəkdin. Şükür, sağam, ancaq orda nə deyəcəkdinsə onu indi de, eşitmək istəyirəm." "Başın yerindədir?" - deyə soruşdum. "Yerindədir." "Tamam, indi ki, bu qəzadan salamat adlamısan, arzunu yerinə yetirim". Təbii ki, ağlıma gələn vida sözünü görüşümüzün sevincinə çevirib söylədim, ondan sonra nə deyə biləcəyimi zarafatla çevirdim. Hələ hansımızın tez gedəcəyimiz bəlli deyildi. Sonra Təbrizdə müalicədən qayıdanda da orda görüşmüşdük və hətta Təbrizdə də ev üçün, uşaqları üçün, Bakı üçün darıxdığını demişdi.

O son görüşlərdə şair qardaşımın şərəfinə nə dediyim yadımda deyil. Yəqin elə bu məqalədə yazdıqlarıma bənzər nələrisə demişdim və sağlığında eşitmişdi... 70 yaşın qutlu olsun, ölməz dost!

*28.12.2016*